Səyyar qəbullar

Kənddə görüş-qəbul

Tərtib olunmuş qrafikə uyğun olaraq rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev Laza kəndində əhali ilə görüş-qəbul keçirmişdir. Qəbula kənd sakinləri, ziyalılar, bələdiyyə üzvləri və əhali ilə sıx bağlı olan təşkilatların rəhbərləri dəvət olunmuşdular.

Tədbiri giriş sözü ilə açan cənab başçı əvvəlcə iştirakçıları salamlayaraq görüşün məqsədi və onun xüsusi əhəmiyyətindən danışdı. Başçı qeyd etdi ki, respublika Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sosial-iqtisadi sahədə əldə edilən uğurlar davam edir, əhalinin rifah halının yüksəldilməsi, yeni iş yerlərinin açılması daim diqqət mərkəzində saxlanılır.

Kənd inzibati ərazi nümayəndəsi Yusif Cabbarov kənd haqqında məlumat verərək bildirdi ki, burada 232 kəndli təsərrüfatında 1.100 nəfər əhali yaşayır.

Əhalinin əsas məşğuliyyəti taxılçılıq, heyvandarlıq məhsulları istehsalıdır. Kənd sakinlərinin bəziləri Qəbələ şəhərində, rayonun digər ərazilərindəki tikintilərdə, idarə və müəssisələrdə çalışırlar.

Kənd ağsaqqallarından Vəlyəddin Vəliyev çıxış edərək respublikamızda və rayonumuzda görülən işlərə görə ölkə başçısı cənab İlham Əliyevə və rayon rəhbərliyinə əhali adından minnətdarlığını bildirdi.

Görüşdə bir sıra təkliflər irəli sürülmüş, həlli vacib olan məsələlər qeyd edilmişdir.

Sonda rayon icra hakimiyyətinin başçısı cənab Səbuhi Abdullyev görüşdə qaldırılan məsələlərin və irəli sürülən təkliflərin həlli ilə bağlı müvafiq idarə və təşkilat rəhbərlərinə tapşırıqlar verdi. Bununla da görüş-qəbul başa çatdı.

Oqtay MƏMMƏDOV.
Foto S. Umuyevindir.

31 mart–Azərbaycanlıların soyqırımı günüdür

Nahaq qan yerdə qalmaz

Ermənilər tərəfindən millətimizə qarşı dəfələrlə törədilən, lakin məlum səbəblərə görə öz siyasi qiymətini almayan soyqırımı da tarixin açılmayan səhifələrindən biridir. Amma aqillərin dediyi kimi : «Nahaq qan yerdə qalmaz».

Ulu öndərimiz Heydər Əliyevin 28 mart 1998-ci ildə imzaladığı fərmanla hər il martın 31-i Azərbaycanlıların soyqırımı günü elan olunmuşdur. Bu tarixi sənəddən sonra mütəxəssislər və tarixçilər fəal mövqe tutmuş, zaman-zaman örtbasdır edilmiş cinayətlərin əsl mahiyyətini açıqlamağa, soyqırımına aydınlıq gətirməyə başlamışlar.

Tarixi həqiqətlərdən aydın olur ki, 1813-cü ildə Gülüstan, 1828-ci ildə Türkmənçay müqavilələrinin imzalanması Azərbaycan xalqının parçalanmasının, əzəli yurd yerlərimizin bölünməsinin əsasını qoydu. 1818--1898-ci illərdə İrandan və Türkiyədən Azərbaycana 1 milyon 200 min erməni köçürüldü. Onlardan 985 min 460 nəfər ölkəmizin qərb bölgəsində, qalanları isə Qarabağ və Gəncə quberniyasında yerləşdirildi. Ermənilər həmin ərazilərdə məskunlaşandan az sonra azərbaycanlıları sıxışdırıb çıxarmış, qarətlər, talanlar etmiş, yerli adamları amansızlıqla qətlə yetirmişlər.

«Böyük Ermənistan» yaratmaq həvəsinə düşən erməni qəsbkarları 1905--1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə geniş miqyaslı qanlı aksiyalar həyata keçirdilər. Onların Bakıdan başlayan vəhşilikləri Azərbaycan və indiki Ermənistan ərazisində azərbaycanlıların əzəli yurd yerlərini əhatə etdi. Yüzlərlə kənd dağıdıldı, yandırıldı, minlərlə soydaşımız amansızlıqla qətlə yetirildi. Ermənilər öz havadarlarının köməyi ilə 1918-ci ilin mart ayından etibarən qanlı plan həyata keçirməyə başladılar. Onların əsas planı Bakı quberniyasını azərbaycanlılardan təmizləməkdən ibarət idi. Əksinqilabçı ünsürlərlə mübarizə şüarı altında onlar minlərlə dinc həmvətənimizi yalnız milli mənsubiyyətə görə öldürdülər, Ermənilər insanları diri-diri yandırır, evlərə od vurur. Milli memarlıq incilərini, məscid və digər tarixi abidələri dağıdaraq Bakının böyük bir hissəsini xarabalığa çevirdilər. Azərbaycanlıların soyqırımı Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və başqa bölgələrimizdə xüsusi qəddarlıqla həyata keçirilirdi. Həmin ərazilərdə dinc əhali kütləvi surətdə qətlə yetirilmiş, əsir götürdüklərini isə tikə-tikə doğramışdılar.

Bütün bu qanlı cinayətlər 1918-ci ilin yaz və payız fəslində törədilmişdir. Məkrli, naxələf qonşularımız 1918- ci il martın 18-də səhərin gözü açılmamış Şamaxı sakinlərini top atəşinin səsinə oyatdılar. Əvvəlcədən müdafiəyə hazırlaşmayan soydaşlarımız düşmənə qarşı, demək olar ki, heç bir müqavimət göstərə bilmədilər. Yanğından xilas olmağa çalışan sakinləri ermənilər güllələyirdi, evlərdə və küçələrdə ağlagəlməz zülm və əziyyətlə qətlə yetirirdilər. Şamaxı əhalisi bir neçə gün belə dözülməz dəhşətli vəziyyətdə qaldı. Azərbaycanın müxtəlif bölgələrindən köməyə gələn döyüşçülər erməni zorakılığına son qoydu.

Erməni bolşeviklər bununla kifayətlənmədilər. Qanlı qırğınlar quldur-terrorçu erməni dəstələri tərəfindən Xaçmaz, Göyçay, Ağdaş, Kürdəmir, Salyan, Lənkəran Nıxçıvan və Qazax qəzalarında talanlar və qırğınlar törətmişdilər.

Soyqırım 1918-ci il sentyabrın ortalarınadək davam etmişdi. Bu soyqırımda 600 minə yaxın azrbaycanlı vəhşi erməni millətçiliyinin qurbanı olmuşdur. Yalnız Azərbaycan Xalq Cümhüriyyətinin yaradılması və qardaş Osmanlı dövlətinin Qafqaz İslam Ordusunun köməyə gəlməsi nəticəsində bu qanlı faciələrə son qoyuldu.

«Qəbələ».

Tarixin yaddaşı

1813—1828-ci ilə qədər Azərbaycan dövlətinin sahəsi: təxminən 410 min kvkm. olmuşdur.

1813—1828-ci illərdə, işğal edilmiş Azərbaycan dövlətinin əraziləri İran əsarəti altındakı Cənubi Azərbaycanın sahəsi təxminən 280 min kvadratkilometr təşkil etmişdir.

Rusiya əsarəti altındakı Şimali Azərbaycanın sahəsi təxminən 130 min kvkm. olmuşdur.

1918-ci ilə görə Rusiyanın təzyiqi ilə ermənilərə verilmiş İrəvan xanlığının sahəsi 9 min kvkm., Rusiya əsarəti altındakı Dərbənd xanlığının sahəsi 7 min kvkm-dir.

1918—1920-ci illərdə Azərbaycan Demokratik Respublikasının qurulduğu ərazinin sahəsi təxminən 114 min kvkm. olmuşdur.

1920-ci ildə ADR-i işğal edən rus-sovet imperiyasının bölüşdürdüyü Azərbaycan dövlətinin əraziləri:

Ermənistan Sovet Sosialist Respublikasının qismən nəzarətinə verilən Zəngəzur, Göyçə, Dərələyəz, Dilican və gürcülərin qismən nəzarətinə verilən (Cürcüstan Sovet Sosialist Respublikası) Borçalı ilə birlikdə sahəsi təxminən 27,4 min kvkm.

1920—1991-ci illərdə SSRİ əsarəti altında qalmış Azərbaycan Sovet Sosialist Respublikasının ərazisi 86,6 min kvkm.

Azərbaycan dövlətinin 1988—1994-cü illərdə işğal olunmuş əraziləri:

Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əskəran, Xocavənd, Ağdərə, Hadrut)

İşğal tarixi 1988—1994-cü illər (sahəsi 4400 kvkm.)

Xankəndi (18—25 sentyabr 1988-ci il).

Şuşa (08 may 1992-ci il).

Xocalı (26 fevral 1992-ci il).

Xocavənd (02 oktyabr 1992-ci il).

Ağdərə (17 avqust 1993-cü il).

Laçın (18 may 1992-ci il)—1835 kvkm.

Kəlbəcər (2 aprel 1993-cü il)—1936 kvkm.

Ağdam (23 iyul 1993-cü il)—1094 kvkm.

Cəbrayıl (23 avqust 1993-cü il)—1050 kvkm.

Füzuli (23 avqust 1993-cü il)—1386 kvkm.

Qubadlı (31 avqust 1993-cü il)—802 kvkm.

Zəngilan (29 oktyabr 1993-cü il)—725,5 kvkm.

Beləliklə, Azərbaycan dövlətinin 20 faiz yox, təxminən 80 faiz ərazisi işğal altındadır.